# Kreativ bacarıqların inkişafına təsir edən amillər

**Təranə Hüseyn qızı Əlisoy**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunu*
**E-mail:** 76_ordubad_76@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. İ.H. Cəbrayılov,
p.ü.f.d., dos. T.S. Paşayev

**Açar sözlər:** inkişaf, şəxsiyyət, yaradıcılıq, kreativlik, ailə, mühit, təlim, müəllim, yaş dövrü, tədris proqramı, ibtidai sinif

**Ключевые слова:** развитие, личность, творчество, креативность,семья, среда, обучение, учитель, возрастной период, программа обучения, начальные классы

**Key words:** development, personality, creativity, family, environment, teaching, teacher, age period, curriculum, primary school

İnsanın inkişafı ana bətnindən başlayaraq ömür boyu davam edən bir prosesdir. Lakin bu inkişaf tempi heç də hər yaş dövrü üçün eyni sayıla bilməz. İnkişafın daha həssas olduğu, mühitdən, daxili və xarici amillərdən asılı olduğu dövrlər vardır ki, bunlardan biri də 6-10 yaşı əhatə edən dövrdür . Bəzən insanların düşüncələrinə, hisslərinə sanki qıfıl vurulur. Bunlardan bəziləri xarici təsirlərdən-ailədən, mühitdən, təhsil sistemindən və təşkilati-bürokratik səbəblərdən yaranır. Digərləri isə xarici təsirlərə qarşı daxili reaksiyaların nəticəsi olaraq özünü büruzə verir. Əslində insan bu əngəllərin nədən ibarət olduğunu bilsə, bunun öhdəsindən də asanlıqla gələr. Daxili amillər dedikdə insanın öz fərdi xüsusiyyətləri, idrak imkanları, maraq və istəkləri, xarici amillər isə cəmiyyət, mühit, təhsil və s. nəzərdə tutulur.

Stimberqə görə kreativliyin inkişafında duyğu və qavrayışın rolu böyükdür. Qavramanın zəif olması problemi ayırd etməkdə, aydınlaşdırmaqda, terminləri, anlayışları tanımaqda, əlaqələri fərqləndirməkdə, səbəb-nəticə əlaqəsini seçməkdə çətinlik yaradır. Duyğu və hissi baxımdan zəiflik isə özünəinamsızlıq, özünü axmaq yerinə qoymq, səhv etmək qorxusu, düşüncə çevikliyinin olmaması, ilk ağıla gələn fikri qəbul etmək, bir an öncə müvəffəqiyyət qazanmaq istəyi, dəstəyə ehtiyac hiss etmək, asılılıq, ətrafındakılara qarşı inamsızlıq, sınaq qorxusu, testə, çalışmaya, problemin həllinə qarşı istəksizlik kimi əlamətlərlə özünü büruzə verir (4).

Tədqiqatlar sübut etmişdir ki, kiçik yaşlarda uşağın fiziki, əqli, hissi, sosial və s. istiqamətdə inkişafı bütün həyatına öz təsirini bu və ya digər şəkildə göstərir. Bu baxımdan da ilk məktəbli yaşlarından etibarən uşaqlara yaradıcı təcrübənin, yaradıcı düşünmənin öyrədilməsi onlarda kreativ bacarıqların gələcəkdə də inkişafını təmin etməyə kömək edir.

Yaradıcı insanı necə yetişdirmək olar? İnsan dünyaya fərd kimi göz açır, müxtəlif amillərin təsiri ilə şəxsiyyət kimi formalaşır. Bioloji varlıqdan sosial varlığa çevrilir. Cəmiyyətdə baş verən sosial, iqtisadi, siyasi və digər dəyişikliklər şagird şəxsiyyətinin inkişafına müxtəlif şəkildə təsir göstərir. Bu təsirlərin nəticəsində şagirdlərin tələbatları, maraqları, baxışları, ətrafdakı şəxslərə və hadisələrə münasibətləri dəyişir.

Şəxsiyyətin inkişafı yaş dövrlərinə uyğun dəyərləndirilsə də, heç də eyni yaşda olan uşaqların hamısı eyni dərəcədə inkişafa malik olmurlar. Bunların bir sıra səbəbləri mövcuddur. Bu səbəbləri müəyyən etmək, korrektə etmək müəllimlərdən böyük pedaqoli səriştə tələb edir. Müəllimlər bəzən elə fikirləşirlər ki, xüsusi istedad ancaq intizamlı, çalışqan, təlim keyfiy-

yətləri yüksək olan şagirdlərdə mövcud ola bilər. Lakin, bəzən çətin uşaqların içərisində qeyri-adi qabiliyyətlərə malik şagirdlərə rast gəlmək olur. Əsas odur ki, həmin şagirdlər zamanında kəşf edilsin və onlara öz qabiliyyətlərini inkişaf etdirmək üçün lazımı şərait yaradılsın. Çünki, bəzən şagird özü də bu qabiliyyətin fərqində olmur (7).

Yaradıcılıq əslində uşağın təbiətində olan bir xüsusiyyətdir. Mühit amili bu xüsusiyyəti inkişaf etdirərək kreativ qabiliyyətə çevirə də bilər, onun tamamilə yox edəcək səviyyədə korlaya da bilər. Uşaq ilk dəfə ailədə dünyaya göz açır. Ailə mühiti uşağın ilkin inkişafının bünövrəsini qoyur. Bu baxımdan ailədə tərbiyə prosesi düzgün təşkil olunmalı, uşağın inkişafına hərtərəfli şərait yaradılmalıdır. Uşaqda hərtərəfli düşünmə özünü tanımaqla, kəşf etməklə başlayar, sonra isə başqalarını və ətraf aləmin dərk olunması ilə davam etdirilir. Uşağın kiçik yaşlarda tənqidi və yaradıcı düşünməyə təşviq olunması üçün məktəbəqədər təhsil proqramlarının da rolu böyükdür (1).

Uşaq bağçalarına, ümumtəhsil müəssisələrində və digər təhsil müəssisələrində istedadlı uşaqların aşkar edilməsi üçün xüsusi iş aparılmalıdır. Bunun üçün xüsusi loboratoriyaya xüsusi tədqiqat işinə ehtiyac yoxdur. Bunu sadə şəkildə sorğu vərəqləri ilə, valideyn-müəllimlərin fikirlərinə əsaslanmaq olar. Müxtəlif siniflərdə sənətşünaslıq, riyaziyyat, oxu, musiqi, incəsənət, ictimai aktivlik və digər sahələri üzrə uşaqların qabiliyyəti qiymətləndirilə bilər. Adi şəraitdə, müşahidələrlə, testlərdən, nağıllardan, əfsanələrdən, tapmacalardan, hikmətli sözlərdən istifadə etməklə də istedadı olan şagirdi müəyyən etmək olar (9).

Kreativlik özü də bir istedad, bir qabiliyyətdir. Bu qabiliyyətin inkişafında rol oynayan amilləri aşağıdakı kimi sadalaya bilərik:

- xarakter xüsusiyyətləri
- yaş
- sosial-iqtisadi səbəblər
- əvvəlcədən qazanılmış təcrübə
- ağıl, intellekt
- müəllim yanaşması
- mühit və ailə
- təlim metodları
- təlim texnologiyaları
- tədris proqramları (7)

Kreativ bacarıqların inkişafında rol oynayan amillərdən biri ağıldır, zəkadır, intellekt səviyyəsidir. Ağıl insanın təbiətdən və tədqiqat obyektindən məlumatın alınması, emal edilməsi prosesində həmin məlumatları qiymətləndirmə, müəyyən məqsədəuyğun seçmə, qruplaşdırma onlardan sübut olunmuş biliklər, teorem, qanun, sxem yaratma, optimal qərar, layihə, metod hazırlamaq, davranışı seçmək qabiliyyətdidir (10).

Ağıl və yaradıcılıq arasındakı əlaqəni araşdırmaq üçün çoxlu araşdırmalar aparılsa da dəqiq nəticə müəyyən olunmamışdır. Belə ki, bəzən intellekt testlərində ən yüksək nəticə əldə edən şagirdlər, həmçinin tələbələr də müxtəlif situasiyalarda kifayət qədər sərbəst düşünə bilmədikləri, özlərinə xas olan fikirləri ortaya çıxarmağa çətinlik çəkdikləri müşahidə olunmuşdur. Deməli yaradıcılıq yüksək zəkaya malik olmaqla bərabər, hərtərəfli düşünməyi də tələb edir. Ona görə də qətiyyətlə deyə bilərik ki, zəka yaradıcılıq üçün vacib, lakin kifayət olmayan bir amildir.

Cəmiyyətdə şəxsiyyət qınaq obyektinə çevrilməmək üçün istədiyi statusu əldə etmək üçün hiss etdiyi, istədiyi kimi hərəkət edə bilmir. İnsanın düşüncə sistemi də yaradıcılığa əngəl olan faktorlardandır. Belə ki, şəxsiyyətin dar düşüncəli olması, biliksizliyi, intellekt səviyyəsinin

aşağı olması, gülünc vəziyyətə düşməkdən qorxması, risk etməkdən çəkinməsi, qərarsızlığı, özünəinamın olmaması onda kreativliyin inkişafına mane olur.

Uşaq imkanlarla dünyaya gəlir. Bu imkanların qabiliyyətə çevrilməsində, uşağın tərbiyəsində, inkişafında əsas amillərdən biri olaraq mühitin istənilən qabilliyyətin inkişaf etdirilməsində yolu əvəzsizdir. Mühit insanlara məxsus bütün ictimai münasibətləri və ictimai inkişafı özündə ehtiva edir. Mühitin rəngarəngliyi bəzən müxtəlif marağa, meylə, motivlərə, əqidələrə, təxəyyülə və məfkurəyə məxsus insanları ayırır, əks tədqirdə birləşdirir (3). Torrance mədəniyyətlərarası əlaqələr zamanı yaradıcılığın da bir mədəniyyətdən digərinə sirayət etdiyini, təsir etdiyini, müxtəlif mədəniyyətlərdə yaradıcılığa qarşı münasibətin fərqli olduğunu söyləmişdir. Bunu o yaradıcılığa olan ehtiyac və tələbatlarla əlaqələndirmişdir. Uşağın düşdüyü ilk mühit ailədir. Uşaq dünyaya göz açdığı andan ailə mühiti, eləcə də, ata-ananın davranışı uşaqlarda ömür boyu davam edən izlər qoyur. Bu yaxşı və ya pis mənada ola bilər. Yaradıcılığın da ilk təlimi məhz elə ailədə başlayır. Tədqiqatlarda sübut olunmuşdur ki, demokratik prinsiplərə əsaslanan ailələrin övladları daha kreativ olurlar. Çünki belə ailələrdə uşaqlar özlərini daha sərbəst hiss edirlər. Onları maraqlandıran məqamlarla bağlı asanlıqla, çəkinmədən sual verə, soruşa bilirlər. Duyğu və düşüncələrini qorxmadan dilə gətirirlər. Əks təqdirdə onlar bundan çəkinər, qorxar, qınanmamaq üçün öz düşüncələrini gizlədər bu isə istənilən sahədə istedadı olan uşağın da qabiliyyətlərinin inkişafına əngəl yarada bilər. İnsan ətrafla maraqlanan zaman onun bütün duyğu və hissləri hərəkətə keçir. Uşağa bir işin görülməli olduğunu demək lazımdır, lakin onu necə etməli olduğunu demək lazım deyil. Bu zaman uşaqlar sizi hətta öz yaradıcılıqları ilə heyran edə bilərlər. Kreativlik yalnız yoxdan var etmək olmayıb, həmçinin var olanı dəyişmək, nizamlamaq, fərqli məqsədlə istifadə etməkdir. Uşağın öz təcrübəsinə əsaslanaraq yeni bir şey hazırlaması duyğu və düşüncələrini rəmzi formada ifadə edə bilməsi onun sağlam qavrayışa, düşüncəyə sahib olmasından xəbər verir. Belə uşaqlar daha yaxşı müşahidə edir, təhlil aparır, əşya və hadisələr arasında əlaqə qura bilir (6).

Bəzi tədqiqatlarda hətta ailədə uşaq sırasının da onların qabiliyyətlərinin inkişafında müəyyən təsiri olduğu qeyd olunur. Əksər hallarda ortancıl və kiçik uşaqların ailədəki böyük uşağa nəzərən daha yaradıcı olduğu müşahidə edilir. Bu isə ata və ananın kişik uşaqlara daha çox diqqəti, qayğısı və sevgisi ilə əlaqələndirilir.

Uşağının hərtərəfli inkişafını təmin etmək, onlara dəstək olmaq üçün valideynlər aşağıdakıları mütləq nəzərə alınmalıdır.

- ✓ Uşağa təzyiq etməməli;
- ✓ Onların uğurlarını dəyərləndirməli;
- ✓ Çox tənqid etməməli;
- ✓ Həddən artıq mühafizəkar olmamalı;
- ✓ Ailədəki uşaqlar arasında ayrı-seçkiliyə yol verməməli;
- ✓ Sevgi və güvənli bir ailə mühitii yaratmalıdırlar.

Valideynlər uşağa xəyal qurmağa, düşündüklərini söyləməyə imkan yaratmalıdırlar (4). Hər şey xəyalla, fantaziya ilə başlayır. Çünki fantasiya insanın qavrayış və hafizəsi ilə bağlı təsəvvürlərin yenidən işlənməsi, yeni qaydada birləşməsi ilə başlayır. Fantastik sayılan əsərlər belə müəyyən zaman keçdikdən sonra həqiqətə çevrildiyi çoxlarımıza məlumdur. Jül Vernin yüz səkkiz fantastik ideyasından yalnız onu səhv çıxmışdır. Həmçinin, Yusif Vəzir Çəmənzəminlinin “Gələcək şəhər” əsərində baş verənlər o dövr üçün fantaziya hesab olunsa da hal-hazırda bunların bəzisi artıq həqiqətdir (2).

Bəzən uşaqlar alınan hazır oyuncaqlardan, bəzəkli gəlincikdən çox köhnə əşyalarla oynamağa (vedrə, taxta, şüşə qablar və s.) can atırlar. Onlar köhnə materiallardan özləri üçün müx-

təlif oyuncaqlar, robotlar, mebellər düzəldirlər. Bu baxımdan da ailədə müəyyən hədd gözlənilməklə uşağa sərbəstlik yaradılmalıdır. Onların hazır oyuncaqları sökməklə, köhnə materialdan yeni nəsə hazırlamaqla təcrübə qazanmaq, sınamaq, yoxlamaq, kışflər etmək və bu şəkildə öyrənmələrinə dəstək olmaq, onları cəsarətləndirmək lazımdır. Səhvlər və maraqları üçün uşaqlar cəzalandırılmamalıdırlar. Oyun oynarkən "qırma", "dağıtma", "diqqətli ol" və s. kimi qadağalardan mümkün qədər çəkinmək lazımdır (4).

Həmçinin uşaqlarda kreativliyin eləcə də digər qabiliyyətlərin inkişaf etdirilməsi zamanı valideynlərin təhsil səviyyəsinin, dünyagörüşünün də müəyyən rolu olduğu inkar edilmir. Həmçinin, maddi vəziyyəti yaxşı olan ailələrdə böyüyən uşaqların da az təminatlı ailələrdə böyüyən uşaqlara nəzərən daha yaradıcı olduqları müəyyən edilmişdir (5).

Yaş. Aparılan tədqiqatlara əsasən 5-6 yaşa qədər uşaqlarda yaradıcılıq qabiliyyətinin pis olmadığını söyləmək mümkündür. Uşağın xəyal gücü ilk 2 yaşdan inkişaf etməyə başlayır. Bu yaşda uşaqlar toxunma, görmə, dartma ilə hər şeyi öyrənməyə, yoxlamağa çalışırlar, hər şeylə maraqlanırlar. 2 yaşdan 4 yaşa qədər uşaqlar hər şeyi özləri etməyə cəhd edirlər. Bu da onların öz qabiliyyətlərini gücləndirmələrinə səbəb olur. Onlar öz xəyallarındakı oyuncaqları müxtəlif əşyalardan, vasitələrdən hazırlayırlar. Valideynler uşaqlara qarşı həssas olmalı, onların yaratdıqları, ad verdikləri hər bir şeyi qəbul etməli. Dəyişdirməyə çalışmamalıdırlar. Artıq 4 yaşadan 6 yaşa qədər dövrdə uşaqlar oyunlar qurmağı, oyunlara qaydalar müəyyən etməyi, planlaşdırmağı, hadisələr arasında əlaqə yaratmağı və s. öyrənirlər.

6 yaşdan sonra isə uşağın məktəbə qədəm qoyması, yeni bir mühitə düşməsi onun bu qabiliyyətlərinin inkişaf etdirilməsinə təsir edən amillər sırasına məktəb, təlim mühiti, müəllim, tədris prosesinin təşkili, təlim metodları, texnologiyaları, proqram və dərsliklər, dərs vəsaitləri də daxil edir.

Məktəbin ibtidai siniflərində uyğun mühit, lazım olan materiallar, düzgün müəllim yanaşması, müstəqil fəaliyyətin dəstəklənməsi, görülən işlərin dəyərləndirilməsi, çevik proqramlardan istifadə edilməsi də yaradıcı düşünməyə, kretivliyə təsir edən amillərdəndir.

Müəllim çox yaxşı izləyici və dinləyici olmalıdır. Şagirdini kifayət qədər tanımalı, ona oz qabiliyyətini göstərməsi üçün lazımı fürsəti verməli, imkanı yaratmalıdır. Müəllim hər fərqli cavabı qəbul etməli, fikirləri dəyələndirməli, hər bir fikrə hörmətlə yanaşmağı bacarmalıdır.

Unutmaq olmaz ki, ibtidai siniflərdə müəllim:

- ✓ Şagird şəxsiyyətinə hörmətlə yanaşmalı
- ✓ Şagirdlər üçün daim yaxşı bir nümunə olmalı
- ✓ Yalnız dərs zamanı deyil, dərsdən sonrakı vaxtlarda da şagirdlərə vaxt ayırmalı
- ✓ Şagirdi ən yaxşı olduğuna, ən yaxşını əldə edə biləcəyinə inandırmalı
- ✓ Şagirdlərə qayğı ilə yanaşmalı, onlar arasında ayrı-seçkiliyə yol verməməli
- ✓ Yeniliyə açıq olmalıdır (4).

İbtidai siniflərdə müəllimlə şagirdlər arasında yaranan səmimi bağ, münasibət də kreativliyə təsir edən amillərdəndir. Belə ki, ibtidai siniflərdə tez-tez müəllim dəyişməsi yalnızca şagirdlərin təlim nəticələrinə deyil, həmçinin onların hissi və duyğusal inkişafına da mənfi təsir edir. Çünki hər dəfə müəllimə uyğunlaşmaq, alışmaq, adaptasiya olmaq, özünü sərbəst, güvəndə hiss edə bilmək şagirdlərdə hər dəfə müəyyən qədər vaxt itkisinə səbəb olur. Həmçinin müəllimin demokratik və ya avtoritar yanaşma tərzinə malik olmasının da şagirdlərə fərqli təsir etdiyi müəyyən olunmuşdur.

Təlim prosesi zamanı müəllim seçilən təlim metodlarına, texnologiyalarına vasitələrə, tapşırıqlara xüsusilə diqqət etməlidir. Çalışmaq lazımdır ki, çevik metodlardan istifadə olunsun. Seçilən tapşırıqlar şagirdləri sərbəst düşünməyə, fəallığa sövq etsin. Tapşırıqlar test şəklində

deyil, hansısa məntiqi ardıcıllığın tamamlanması, iç-içə keçirilmiş şəkillər, yarımçıq qalmış hekayələrin tamamlanması, konstruktiv tapşırıqlar şəklində olması və s. daha məqsədəuyğundur. Şagirdlərə aşılamaq lazımdır ki, məqsədə gedən yolda ilk uğursuzluqda məğlubiyyətə uğradıqlarını düşünməsinlər, onları daim ruhlandırmalıdır. Məsələn, Eynşteyn nisbilik nəzəriyyəsi üzərində 7 il çalışmışdı.

İbtidai siniflərdə hər şeyə məntiqi düşüncə ilə yanaşan müəllimlər şagirdlərin hərtərəfli inkişafına mane ola bilər. Şagird üzərində hədsiz təzyiq, dissiplin, həmçinin hədsiz özbaşınalıq, dissiplinsizlik də həm təlimin keyfiyyətini, həm də şagirdlərdə qabiliyyətlərin inkişafına mənfi istiqamətdə təsir edir (5).

Kreativ bacarıqların inkişaf etdirilməsində təhsil proqramlarının da rolu böyükdür. Xüsusi ilə ibtidai siniflərdə müəyyən bir potensial ilə gələn şagirdin bu potensialını daha da inkişaf etdirmək üçün uyğun bir dövrdür. İstər müəllimin, istərsə də şagirdlərin üzərində məhdudiyyətlərin, məhrumiyyətlərin həddən artıq olması onları passivləşdirir. Üstəlik bu hal dərsdənkənar zamanlara da təsir edir. Jan Piajeyə görə təhsilin məqsədi verilən biliyin çox olması deyil, təhsilalanların kəşflər, ixtiralar etməsinə imkan yaradacaq qabiliyyətlərə malik insan yetişdirmək olmalıdır.

Şagirdlərdə kreativliyi inkişaf etdirmək istəyən müəllim özünü göstərmək istəyən şagirdi dəstəkləməli, onun duyğularının önünə sədd qoymamalı, şagirdə kifayət edəcək qədər vaxt verməli, lazım olan təchizatla təmin etməli, bir sözlə uyğun mühiti təşkil etməlidir (4).

Bütün sadalanan halları nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, əgər:

- Ailədə tərbiyə prosesi düzgün təşkil olunarsa
- Yersiz məhdudiyyət və tənqiddən istifadə olunmasa
- Təhsil fəlsəfəsi düzgün seçilib, tətbiq olunarsa
- Məqsədlər doğru müəyyən edilərsə
- Düzgün strategiya seçilərsə
- Texniki təminat yaradılarsa
- Təlim mühiti düzgün təşkil olunarsa
- Şagird təlim prosesinin mərkəzində dayanarsa
- Şagirdin maraqları, istəkləri, təklifləri nəzərə alınarsa
- Dərs proqramları, dərslik, dərs vəsaitləri düşündürücü, interaktiv tapşırıqlarla zənginləşdirilərsə
- Əməkdaşlıq təmin olunarsa

Şagirdlərdə istənilən qabiliyyətin inkişafı üçün optimal şəraitin yaradılması təmin olunmuş olar. Yaradıcı düşünən gənclər yetişdirmək isəyiriksə, onda yeniliyə açıq, sərbəstliklə dissiplin arasında, təcrübə və bilik arasındakı balansı nizamlamağı bacarmalıyıq.

**Məqalənin aktuallığı.** Müasir dövrdə təhsilalanların gələcək həyatda uğur qazanması üçün ilk növbədə onlarsa əsas bacarıqların, o cümlədən kreativ formalaşdırılması vacibdir. Bu istiqamətdə işin uğurlu nəticəsi müvafiq tədbirlərin vaxtında həyata keçirilməsindən çox asılıdır. Bu baxımdan kiçik yaşlı məktəblilərə kreativ bacarıqların aşılanması zəruridir.

**Məqalənin elmi yeniliyi.** Erkən yaşlardan başlayaraq kreativ bacarıqların formalaşdırılmasına təsir edən şərait, amillər müəyyən edilmişdir. Məqalədə həmin bacarıqların inkişaf etdirilməsinə mane olan səbəbləri necə aradan qaldırmağın yolları göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə əksini tapmış fikir və ideyalar tədris resurslarının hazırlanması üçün əhəmiyyətlidir. Bu tövsiyələrdən ibtidai sinif müəllimləri şagirdlərdə kreativ bacarıqları formalaşdırmaq məqsədilə istifadə edə bilərlər.

## Ədəbiyyat

1. C.Karakuş. "Okul öncəsi eğitim programı kazanımlarında düşünme becerilerinin yeri". İnternotional social Sciences Studies Journal, 2019.

2. Ə. Ağayev. Fantaziya yaradıcı təxəyyülü inkişaf etdirir // Azərbaycan məktəbi, 2017, №1

3. F.Sadıqov. Pedaqogika. Bakı: Mütərcim, 2012.

4. G.Tedik. İlkokul 4 sınıfta uygulanan yaratıcı drama etkinliklərinin öyrencilerin yaratıcılık becerisindəki etkisi, 2013.

5. H.G.Karsak. Oğretmen değişen ve değiştirmeyen öyrencilerinin yaratıcılık becerilerinin incelenmesi. İnternational journal of human sciences, 2016.

6. İ.H.Cəbrayılov. Təhsilin modernləşdirilməsinin elmi-nəzəri problemləri. Bakı: Mürtəcim, 2015.

7. N. Cəfərova. İstedadlı şagirdlərin formalaşmasında fərdi-psixoloji xüsusiyyətlərin nəzərə alınması // Azərbaycan məktəbi, 2017, № 3

8. R.Alkan. Genel yaratıcılık, matematiksel yaratıcılık və akademik başarı arasında ilişkilərin incələnməsi. Temmuz, 2014.

9. Ş.Əliyeva, Ə. Baxşəliyev, Q.Rəhimova, S. Heydərova. İstedadlı uşaqların psixopedaqoji xüsusiyyətləri // Azərbaycan məktəbi, 2018, № 1

10. T.Mehdi. Dünya necədir, o necə işləyir? Rasional cəmiyyət uğrunda İctimai Birliyin nəşri. Bakı, 2011.

**Т.Г. Алисой**

## Факторы, влияющие на развитие креативных навыков

## Резюме

В статье говорится о факторах, препятствующих развитию талантливых, особо одаренных детей, о работе над навыками способствующими проявлению этих качеств, подчеркивается важность развития личности в современном мире, реализации его в жизни и в современном обществе. Отмечается роль правильного подхода учителя начальных классов в своевременном обнаружении этих навыков, важность программы обучения, правильный выбор технологии обучения. Факторы, развивающие креативность начиная с младшего возраста, подразделяются на внешние и внутренние, объясняется роль каждого из них в процессе развития креативности. Даются необходимые рекомендации по устранению отрицательных воздействий.

**T.H. Alisoy**

## Affective factors for creative skills


## Summary

The article reviews the optimal conditions for the development of personality, the necessary skills which are needed to help the person to identify his position in life and in society and the factors hinder the development of these abilities in gifted children with special abilities. It is also mentioned in the article the importance of primary education programs, teaching methodologies, the right approach of teachers in the timely identification of these abilities. The factors influencing the development of creativity from an early age are divided into internal and external factors, and the role of each in this process is explained. Some necessary recommendations are given that will help to eliminate the negative effects.


**Redaksiyaya daxil olub:** 12.06.2020